UOT 94; UOT 94(479.24)

MƏHARƏT OSMANLI
Bakı Dövlət Universitetinin dosenti,
Tarix üzrə fəlsəfə doktoru
Maharatosmanlı @ bdu.su.az

XIX ƏSRİN I YARISINDA RUSİYANIN CƏNUBİ QAFQAZIN MƏNİMSƏNMƏSİ SAHƏSİNDƏ HƏYATA KEÇİRDİYİ SİYASƏTİ HƏMİN SİYASƏTİN TƏRKİB HİSSƏSİ OLAN KÖÇÜRMƏ VƏ RUSLAŞDIRMA SİYASƏTİNİN CƏNUBİ QAFQAZ REGİONUNA TƏSİRİ VƏ NƏTİCƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/111/27-30

I Pyotr hakimiyyətdə olduğu bütün müddətdə Cənubi Qafqazı bir an olsun nəzərindən kənarda qoymr, istər diplomatik yolla, istərsə də hərb yolu ilə bölgənin ələ keçirilməsində əlində olan bütün imkanları dəyərləndirirdi. Rusiyanın ticari, iqtisadi, siyasi mövqeyinin möhkəmlənməsində Cənubi Qafqazın rolunun dəyəri öz təsdiqini "Gülüstan", "Türkmənçay" müqavilələrində də tapırdı. Üstəlik, Xəzər dənizini Rusiyanın daxili dənizinə çevrilməsi Rusiyanın gələcək inkişafı üçün çox vacib idi. Bütün bunların fərqində olduğu üçün o, hətta övladlarına vəsiyyət edərək bu bölgədə Rusiyanın gələcək fəaliyyətini təmin etməyə çalışmışdı. Nəhayət, bir əsr sonra I Pyotrun xələfləri onun arzusunu həyata keçirməyə müvəffəq olmuşdular. Sırada bu ərazinin tamamilə mənimsənilməsi, və Rusiyanın ayrılmaz parçasına çevirmək dururdu. Məhz buna görə köçürmə siyasətinin həyata keçirilməsindən başlamaq, əslində nəzəri cəhətdən doğru addım idi. Yerli əhalinin mədəniyyətinə, dininə, dilinə təsir edə bilmək üçün buraya kütləvi şəkildə rusların, xüsusən də ermənilərin köçürülməsi başlanıldı.

Açar sözlər: Rus imperiyası, Cənubi Qafqaz, Azərbaycan ərazisi, köçürmə siyasəti, münaqişələrin təşkil olunması.

Giriş. Uzunmüddətli gərgin mübarizənin nəticəsində əldə edilən Cənubi Qafqaz regionu Rusiyanın planlarında hər şeydən əvvəl xammal mənbəyi və satış bazarı kimi dəyərləndirilirdi.

Əsas hissə. Öz planlarının həyata keçirmək məqsədi ilə çar Rusiyasının həyata keçirdiyi tədbirlərin bir hissəsi olan 1831-ci il əsasnaməsi ilə Cənubi Qafqaz, o cümlədən Şimali Azərbaycan çar hökümətinin mühafizəedici gömrük siyasəti çevrəsinə daxil olur və Rusiya sənaye məhsulları üçün daxili satış bacarığına çevrilirdi. Lakin ticarətin yolunda əngəl olan rəhdarın ləğvi xeyli uzanmış, yalnız 1846-cı ildə ləğv olunmuşdu.

Qadağanedici gömrük tarifləri sistemi də 1846-cı ildə ləğv olundu. 1846-cı il 14 dekabr tarixli əsasnaməyə görə 1831-ci il əsasnaməsinin qadağanedici şərtləri aradan qaldırılmış, Qərbi Avropadan gətirilən mallar üzərinə qoyulan gömrük rüsumları xeyli azaldılmışdı [3].

Çar müstəmləkəçiləri ilk illərdən etibarən Qafqazda rusların köçürülüb yerləşdirilməsinə ciddi fikir verirdilər. Bu yolla Qafqazda, o cümlədən Azərbay-canda məskunlaşan ruslar çarizmin dayağına çevrilməli, bu yerlərin itaətdə saxlanılmasında əsas dayaq rolunu oynamalı idilər. Zaqafqaziyada rusların yerləşdirilməsi, əsasən üç istiqamətdə aparılmışdı. Hərbi hissələrdə inşa edilmiş kilsələrdə xidmət edən din xadimlərinin gətirilməsi, hərbi xidmətdən sonra burda daimi yaşamaq üçün qalanlara imtiyazların verilməsi, dini əqidələrinə görə sektantların Rusiyanın müxtəlif quberniyalarından Azərbaycana köçürülüb məskunlaşdırılması. Kilsələr rusiyanın müstəmləkə siyasətini Azərbaycanda həyata keçirən ilk carçıları idilər. Lakin Rusiyanın müstəmləkə dairələrinin ciddi cəhdlərinə baxmayaraq xristianlığın bu yolla yayılması geniş vüsət almamışdı. Rus kilsələri ermənilərin çarizmin dayağına çevrilməsi prosesini surətləndirdi və bu işə məqsədyönlü bir istiqamət verdi. Zaqafqaziyanın ruslaşdırılmasında kilsə fəaliyyətinin kifayət etmədiyini duyan çarizmin müstəmləkəçi dairələri başqa üsullara əl atdılar. 1821-ci il yanvarın 3-də verilmiş çarın fərmanında [4] əsgəri xidməti qurtarandan sonra Qafqazda qalmaq istəyənlər üçün imtiyazlar nəzərdə tutulmuşdu. Qalmaq istəyənlərə pul, hərbi ləvazimat verilir, əkinçiliklə məşğul olmaq üçün münbit torpaq sahələri ayrılırdı. Hərbi yaşayış məskənləri kimi sayılan bu yerlərdən birincisi Şuşa şəhəri yaxınlığında, sonra isə Qubada salındı.

Çar hökuməti Azərbaycanı əbədi olaraq əldə saxlamaq üçün köçürməyə, xüsusən də, rusların bu diyarda məskunlaşdırılmasına əsas vasitə kimi baxırdı. 1837-ci ildə çar I Nikolayın fərmanı ilə Yelizavetpolda hərbi koloniyalar yaratmaq barədə göstəriş verildi. Azərbaycanda rusların məskunlaşdırılmasını geniş miqyasda həyata keçirmək üçün daha təsirli işlərdən biri də rus sektantlarının buraya köçürülməsi idi. 1802-ci ildə imzalanmış çar fərmanı ilə təriqətçilərin Zaqafqaziyaya sürgününün əsası qoyuldu. Rusiyadan təriqət üçün xüsusi komitə yaradıldı. Azərbaycanda yerləşdirilən hər köçkün ailəsinə 5 desyatin miqdarında torpaq verilməsi nəzərdə tutulurdu.

Rusların köçürülməsi ilə bağlı olaraq 1830-cu ilin oktyabrın 20-də Dövlət Şurası daha bir qərar qəbul etdi. Bu qərarda rus pravaslav kilsəsinə qarşı çıxan hər hansı təriqətli kafir kimi qiymətləndirilirdi. Bu qərara molokanlar, duxuborlar, skoplar və subbotniklərə şamil edilirdi. Qərarda qeyd edilirdi ki, təriqətçilərə cəza kimi ya Qafqaz hərbi korpusuna əsgəri xidməti keçirmək üçün Zaqafqaziyaya göndərməli, ya da oraya sürgün olunmalıdırlar. Dövlət şurasının 1831-ci il 31 yanvar tarixli qərarında rus köçkün təriqətçilərinin Azərbaycanda yerləşdirilməsi qaydaları şərh edilmişdi [3]. Bu qərara görə: 1. rus köçkünləri üçün ayrılmış torpaq sahəsi 5 desyatindən az olmamalı idi; 2. məhkəmənin hökmü ilə köçürülən təriqətçilər, meşə yaxınlığında olan torpaq sahəsində yerləşdirildiyi təqdirdə 50 manat, meşələrdən uzaq məskunlaşan torpaq sahəsi alanlar isə 100 manat pul mavinat almalı idi; 3. raskolniklər başqalarına təsir göstərməsinlər deyə təzə məskən saldıqları yerlərdə kompakt halda yerləşdirilməli qadağan edilirdi, onlar pərakəndə halda yaşamalı idilər; 4. raskolniklərin şəhər əhalisinə zərərli təsirini heçə endirmək üçün onlar kənd təsərrüfatı rayonlarında məskunlaşdırılmalı idilər.

Azərbaycanda rus təriqətçilərinin köçürülüb məskunlaşdırılmasında ilk illərdə dini motivlər üstünlük təşkil etmişdir. Azərbaycanda rus köçkünlərinin yerləşdirilməsi Qafqaz canişinin nəzarəti altında həyata keçirilirdi.

Başqa yerlərdə olduğu kimi Azərbaycanda da ilk vaxtlarda rus sektorlarının bir yerdən başqa yerə köçmələri qadağan edilmişdi. Bundan əsas məqsəd onları məhdud çərçivədə saxlamaqla, təriqətçiliyin qarşısını almaq idi. Bu proses 30-cu illərin II yarısınadək davam etdi. Bu vaxtdan sonra rus köçkünlərindən Azərbaycana idarə etmək məqsədilə daha geniş planda istifadə etmək qərarına alındı. 1837-ci ildə qəbul edilmiş hökümət qərarında sektantlarla bağlı pasport rejimi ləğv edildi [3]. Sürgün olduqları ərazidə onların sərbəst hərəkət etmələri üçün icazə verildi. Bu yeni siyasət Azərbaycana yeni rus axınına səbəb olmalı idi ki, bu da öz növbəsində çar müstəmləkə dairələrinin Qafqzın ruslaşdırma siyasətini sürətləndirməli idi. Ciddi pasport rejimi çərçivəsində yaşayan sektorlar yeni qərar qəbul ediləndən sonra Rusiyaya qayıtmaqdan vaz keçir, Azərbaycanın daha münasib yerlərini daimi məskən kimi seçirdilər. 40-cı illərin II yarısında rus sektantlarına artıq dini təfriqə salanlar kimi yox, Azərbaycanda çar siyasətinin daşıyıcısı və həyata keçirilməsində istifadə olunan mühüm amil kimi baxmaq üstünlük təşkil etməyə başladı. 1848-ci ildə verilən qərara əsasən rus sektantlarına Azərbaycanın şəhərlərində də yaşamaq hüququ verildi. Bu yeni qərar Azərbaycana yeni rus axını üçün hüquqi zəmin yaratmalı və ruslaşdırmanın bölgədə surətləndirməli idi.

1849-cu ilin 9 dekabrında qəbul olunmuş Zaqafqaziyaya köçən raskolniklərin imtiyazları haqqında qərarda [1] könüllü olaraq Zaqafqaziyaya köçmək və burada məskunlaşmaq istəyən ruslar üçün əsaslı imtiyazlar nəzərdə tutulmuşdu.

Zaqafqaziya regionuna rus axınını genişləndirmək məqsədilə 1849-cu ilin dekabrında çarın yeni fərmanı çıxdı. Orada könüllü olaraq Azərbaycana köçən hər rus ailəsinə 30-dan 60 desyatinədək torpaq sahəsi verilirdi. Bundan başqa kreditlə təmin olunmalı, ev tikmək üçün onlara material verilməli idi. Fərmanda köçürülənlərin, həmçinin torpağın becərilməsi üçün lazım olan kənd təsərrüfatı alətlərilə təmin olunması nəzərdə tutulurdu.

Bu fərmandan sonra Azərbaycana rus ailələrini gəlişində yeni bir mərhələ başladı. Bu dövrdən etibarən rus köçkünlərinin nəinki əvvəllər tutulmuş Qarabağ, Şəki, Şirvan və Talış mallarında, həmçinin Mil və Muğan zonalarında yerləşdirilməsinə başlandı. Bu köçkünlər Muğanda pambıqçılığın inkişafına kömək etməli idilər. Azərbaycanda ilk rus yaşayış məntəqəsi 1830-cu ildə Vərəndin adlı yerdə salınmışdı.

Ümumiyyətlə, XIX əsrin 30-cu illərindən 80-ci illərinədək rus köçkünləri vasitəsilə Bakı quberniyasında 22 kənd salındı. Rus kəndlərinin 8-i Şamaxı, 7-si Lənkəran, 3-ü Göyçay, 3-ü Cavad və 1-i Quba qəzalarınad salınmışdı. XX əsrin əvvəllərində rusların Azərbaycana güclü axını nəticəsində

Bakı quberniyasında 18, Yelizavetpol quberniyasında isə 10 yeni rus kəndi salındı. 1873-cü il məlumatına görə Azərbaycanın 1 milyon iki yüz üç min üç yüz doxsan altı nəfərdən ibarət əhalisinin 27120 nəfərini rus kəndliləri təşkil edirdi [3].

Bütün bu proseslərin nəticəsi olaraq istər bütöv Cənubi Qafqazda, istər də Azərbaycanda əhalinin etnik tərkibi ciddi dəyişikliyə məruz qalmışdı. Yad mədəniyyətə, yad dinə və dilə məxsus əhalinin köçürülməsini yerli əhali heç də xoş qarşılamırdı. Üstəlik öz din, mədəniyyət və dillərinə məhdudiyyətlərin qoyulduğunu gördükcə onların narazılığı daha da artdı. Yerli əhali haqlı olaraq öz doğma torpaqlarında məhz özlərinin üstünlüyünə nail olmaq istəyirdi. Üstəlik çar rusiyasının bu bölgədəki iqtisadi siyasəti də onları narazı salırdı. Artırılan vergilər, istismarçılıqla köçürülən əhaliyə verilən imtiyazların onlara aid edilməsi, tam əksinə onların sahib olduqları ən yaxşı torpaq hissələrinin də rus və ermənilərə verilməsi böyük narazıçılıq doğururdu və bu özünü artıq müxtəlif formalarda büruzə verməyə başlamışdı. Xüsusən də XIX əsrin 90-cı illərində Azərbaycanı bürünmüş üsyanlar bunun bariz nümunəsidir.

İlk üsyan 1830-cu ildə muxtariyyətlərını itirmək istəməyən Car-Balakən camaatlığında oldu [4]. Baxmayaraq üsyançılar əzmlə mübarizə aparırdı, üsyan üçün xarakterik olan kortəbiilik, qeyri-mütəşəkkilik onun müvəffəqiyyətsizliyinə düçar olmasına səbəb oldu.

Ard-arda Lənkəranda, Qubada, Şəkidə Çar Rusiyasının siyasətinə qarşı baş vermiş 30-cu illər üsyanları hamısı Çar ordusu tərəfindən qan içində boğuldu. Onların rəhbərləri sürgün və edamlara məruz qaldı. Üsyanlar hamısı məğlubiyyətə düçar olsada, əlbətdə ki, müəyyən qədər faydası da olmuşdu. Çar Rusiyası yeritdiyi siyasətin yanlış olduğu qənaətilə bəzi tədbirlər həyata keçirilmişdi. Lakin nəticə etibarilə o, işğalçı ölkı idi. Onun işğal etdiyi Cənubi Qafqaz ərazisi isə onun mənafeyinə, maraqlarına xidmət etməli idi. Buna görə də Çar Rusiyası öz məqsədi naminə yeritdiyi siyasətdən əl çəkmək niyyətində deyildi. Məhz buna görə də ruslaşdırma siyasətini surətləndirmək üçün bütün imkanlardan istifadə edirdi. Nəticə etibarilə bunun tədricən yerli əhaliyə müəyyən qədər təsiri də olmuşdu. Belə ki, əhali arasında az miqdarda da olsa ruspərəst qüvvələrin formalaşması, əslində Çar Rusiyasının ruslaşdırma siyasətinin müvəffəqiyyəti hesab oluna bilər.

Nəticə. XIX əsrin I yarsında Çar Rusiyasının Cənubi Qafqazı ələ keçirməsi və bölgədə yeritdiyi siyasət Rusiyanın işğalçılıq və müstəmləkə niyyətindən başqa bir şey deyildi. Həmin niyyət Rusiyanın bölgənin mənimsənilməsi ilə əlaqədar həyata keçirdiyi tədbirlərdə də bir daha öz təsdiqini tapırdı. Cənubi Qafqazın iqtisadi cəhətdən mənimsənilməsi üçün Çarın verdiyi bir sıra fərmanlar da Çar Rusiyasının ticari, iqtisadi mənafeyini müdafiə edirdi. Nəticə etibarilə Cənubi Qafqazda Rusiyanın yeritdiyi siyasət həm bölgənin etnik tərkibinə mənfi təsir göstərmiş, həm də gələcəkdə bu ərazidə baş verəcək bir sıra genişmiqyaslı konfiliktlərin əsasını qoymuşdur. Belə ki, hələ də bölgədə ərazi məsələlərilə bağlı həll olunmamış, mübahisəli məqamların olması məhz həmin siyasətlə bağlıdır.

ƏDƏBİYYAT

1. Anar Məmmədov. Gülüstan və Türkmənçay müqaviləsinin acı nəticələri / 9 iyul 2020. - kayzen.az/blog/politologiya/25747/gülüstan-və-türkmənçay-müqaviləsinin-acı-nəticələri.html
2. Yaqub Mahmudov. Gülüstan və Türkmənçay müqavilələri tariximizin ən ağrılı səhifələridir / 525-ci qəzet. -2019. -16 oktyabr. -№ 138. -S.19.
3. Aydın Mirzəzadə. XIX əsrin 20-30-cu illərində Çar Rusiyası tərəfindən ermənilərin Cənubi Qafqaza kütləvi köçürülməsi və bölgədə erməni amilinin yaranması //Tarix və onun problemləri, №4 2014, s.147-150.
4. Murad Muradov. Çar Rusiyasının Azərbaycanda işğalçılıq və köçürmə siyasəti (XIX əsrin I yarsında). Bakı,"Nur", 1999, 123 s.
5. Qiyasəddin Qeybullayev. Qarabağ (etnik və siyasi tarixinə dair). Bakı, Elm, 1990, 248 s.

МАХАРАТ ОСМАНЛЫ
Доктор философии по историческим наукам,
Доцент Бакинского Государственного Университета

ВЛИЯНИЕ И ПОСЛЕДСТВИЯ ПОЛИТИКИ АССИМИЛЯЦИИ И РУСИФИКАЦИИ, КОТОРАЯ БЫЛА НЕОТЪЕМЛЕМОЙ ЧАСТЬЮ ПОЛИТИКИ РОССИИ В ПЕРВОЙ ПОЛОВИНЕ XIX ВЕКА В ОБЛАСТИ ОСВОЕНИЯ ЮЖНОГО КАВКАЗА

На протяжении всего своего правления Петр I не упускал из виду Южный Кавказ и рассматривал все имеющиеся в его распоряжении возможности для захвата этого региона - как дипломатическими, так и военными средствами. Значение Южного Кавказа в укреплении торгово-экономических и политических позиций России было подтверждено также в Гюлистанском и Туркменчайском договорах. Более того, превращение Каспийского моря во внутреннее море России имело большое значение для её будущего развития. Осознавая всё это, он даже пытался обеспечить будущую деятельность России в этом регионе, завещав его своим детям. Наконец, столетие спустя, преемникам Петра I удалось осуществить его мечту. Следующим шагом было полное присоединение этой территории и включение ее в состав России. Именно поэтому начало реализации переселенческой политики было теоретически правильным шагом. Массовое переселение русских, особенно армян, началось здесь с целью повлиять на культуру, религию и язык местного населения.

Ключевые слова: Российская империя, Южный Кавказ, территория Азербайджана, переселенческая политика, конфликты.

MAHARAT OSMANLI
PhD, Associate Professor of Baku State University

THE INFLUENCE AND CONSEQUENCES OF THE POLICY OF ASSIMILATION AND RUSSIFICATION, WHICH WAS AN INTEGRAL PART OF RUSSIA'S POLICY IN THE FIRST HALF OF THE XIX CENTURY IN THE AREA OF DEVELOPMENT OF THE SOUTH CAUCASUS

Throughout his reign, Peter I never lost sight of the South Caucasus and considered all the possibilities at his disposal for capturing this region – both by diplomatic and military means. The importance of the South Caucasus in strengthening Russia's trade, economic, and political positions was also confirmed in the Gulistan and Turkmenchay Treaties. Moreover, turning the Caspian Sea into an internal sea for Russia was of great importance for its future development. Recognizing all this, he even tried to ensure Russia's future activities in this region by bequeathing it to his children. Finally, a century later, Peter I's successors managed to make his dream come true. The next step was the complete annexation of this territory and its inclusion into Russia. This is precisely why the implementation of the resettlement policy was theoretically the right move. The mass resettlement of Russians, especially Armenians, began here with the aim of influencing the culture, religion, and language of the local population.

Keywords: Russian Empire, South Caucasus, territory of Azerbaijan, resettlement policy, conflicts.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 noyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Abutalıb Cəlilov, t.e.d. Qabil Əliyev.